*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 aprel 2019-cu il № 28 (2345) Qiyməti 30 qəpik


## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin

# Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə" təsdiq edilsin.

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 aprel 2019-cu il.

## Cəbhə bölgəsində yerləşən artilleriya bölmələri döyüş atışlı təlimlər keçirib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin hazırlıq planına uyğun olaraq, Raket və Artilleriya birləşmələrinin döyüş atışlı təlimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərdə artilleriya bölmələri marş icra edib, cəmləşmə rayonlarına çıxıb və atəş mövqelərini tutaraq döyüş atışlarını yerinə yetiriblər.

*Ön xətdən reportaj*

# Bu yol Qələbə yoludur



Ön xətdə yerləşən "N" hərbi hissəsinin bir bölməsinə, Vətənimizin və xalqımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlıq yolunu davam etdirən hərbi qulluqçularımızla görüşə gəlmişik.

Hərbi hissənin zabiti Rail Ağayev döyüş növbətçiliyi aparan şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti barədə məlumat verir: "Tabeliyimizdə xidmət edən şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti və döyüş ruhu yüksəkdir. Yüksək nailiyyətlər əldə etmək üçün sadəcə dərslərin keçirilməsi kifayət etmir, şəxsi heyət arasında rəqabət yaratmaq da vacib məsələlərdəndir. Bu səbəbdən dərslərdə fərqlənənlər yuxarı komandanlıq tərəfindən müxtəlif növ həvəsləndirici mükafatlarla və qiymətli hədiyyələrlə təltif olunurlar. Bu gün hər bir Azərbaycan zabitinin, gizirinin və əsgərinin qarşısında duran ən vacib vəzifə - Böyük Qələbə uğrunda gedəcək döyüşlərə hazır olmaqdır. Bu amal hamımızı birləşdirir. Məqsədimizə çatmaq üçün hər birimiz çalışırıq ki, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk. İnanırıq ki, tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən tapdağında olan torpaqlarımızı azad edəcəyik."

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında ƏSASNAMƏ

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Azərbaycan Respublikası Prezidentinin rəsmi hərbi simvoludur.

2. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı 3 növdə hazırlanır:

2.1. etalon (bayrağın orijinalı) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident Sarayında yerləşən xidməti otağında saxlanılır;

2.2. dublikat (bayrağın surəti) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi iştirak etdiyi rəsmi tədbirlərin və digər mərasimlərin keçirilməsi zamanı və o, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin struktur qurumlarına gəldikdə həmin tədbirin keçirildiyi binanın üzərində, olduğu gəmidə və ya həmin tədbir üçün nəzərdə tutulan salonda (otaqda) qaldırılır (asılır) və ya yerləşdirilir;

2.3. kiçildilmiş ölçülü dublikat (nəqliyyat üçün) - Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi səfərləri zamanı nəqliyyat vasitəsində quraşdırıla bilər.

3. Ölçülərindən asılı olmayaraq, bayrağın bütün dublikatları onun etalonunun (orijinalının) təsviri, rəng çalarları və ölçüləri nisbəti ilə eyni olmalıdır.

4. Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Dövlət Bayrağından sağda yerləşdirilir.

# Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının TƏSVİRİ




*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinə tam uyğun şəkildə, ikiüzlü qumaşdan hazırlanır və eninin uzunluğuna nisbəti 1:2-dir.

2. Bayrağın hər iki üzünün ortasında Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi təsvir edilmişdir. Qumaşın üst kənarı boyu mavi zolaqda qızılı rəngli hərflərlə "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı kənarı boyu yaşıl zolaqda isə "SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANI" sözləri yazılmışdır.

3. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi tiyələri yuxarı yönəlmiş çarpazlaşdırılmış qılıncların iti ucları arasında yerləşən Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirindən ibarətdir. Qılıncların tiyələrinin aşağı əsaslarından uclarına doğru hər iki tərəfə dəfnə budaqları yönəlmişdir. Dəfnə budaqları və qılıncların dəstəkləri qızılı, tiyələri isə gümüşü rəngdədir.

4. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının dirəyi girdə taxtadandır. Dirək tünd qəhvəyi boya ilə rənglənir, laklanır və yuxarı ucu aypara ilə səkkizguşəli ulduz formalı nikellənmiş metal başlıqla örtülür.

# Bu yol Qələbə yoludur

(Əvvəli 1-ci səhifədə)

Döyüş mövqeyində bizi gizir Aydın Əhmədov qarşılayır. Gizir əsgərlərimizin bilik və bacarığından söz açaraq bildirir ki, şəxsi heyətimiz döyüş növbətçiliyi aparmasına baxmayaraq günün nizam qaydasına uyğun olaraq hərbi vərdişlərini təkmilləşdirir. "Tabeliyimdə xidmət edən əsgərlərimizin hər biri döyüş meydanında düşmənə layiqli cavab vermək iqtidarındadır. Həmişə çalışırıq ki, onlar ekstremal şəraitdə düzgün qərar qəbul edə bilsinlər. Bunun üçün də xidmət etdiyimiz yerin landşaftına, həyəcan və basqın zamanı düzgün mövqelərin seçilməsinə diqqət yetirməliyik. Komandir heyəti əsas üstünlüyü təlimlər zamanı hücum komandasının müvəffəqiyyətlə həyata keçirilməsinə verir. Döyüş meydanında əli silahlı, təcrübəli əsgər düşmən üçün təhlükə mənbəyidir. Bunu rəhbər tutaraq gizir hazırlığı kursunda və praktikada yiyələndiklərimi



daim əsgərlərimizlə bölüşürəm. Çalışıram ki, hər an yuxarı komandanlığın döyüş əmrinə hazır olaq. Xidmətə gəldiyim ilk gündən torpaqlarımızı işğaldan azad edəcəyimiz günü səbirsizliklə gözləyirəm. İnanıram ki, xalqımıza qələbə sevincini daddıracağımız gün uzaqda deyil."

Zabit R.Ağayev nəzarətimiz altında olan ərazi, düşmən qüvvələrinin yerləşdiyi yerlər haqqında məlumat verir. Əsgərlərimizin məişət şəraiti ilə tanış olmaq üçün yataqxanaya daxil oluruq. Burada Vətən müdafiəçiləri ilə söhbət etmək imkanı qazanırıq. Əsgər Nicat Heybətov bildirir ki, onlara tapşırılan şərəfli vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. "Hərbi xidmətə gəldiyim ilk gündən komandirlərimiz bizə silahlardan istifadə etməyi, hər an döyüşə hazır olmağı, üzərində doğulduğumuz torpaq uğrunda canından keçməyi öyrədirlər. Düşmənlə üzbəüz mövqelərdə xidmət etmək məsuliyyətli vəzifədir. Hər zaman ayıq-sayıq olmalıyıq. Hamımız yaxşı bilirik ki, bizlərə şərəfli bir iş tapşırılıb. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə daha mübariz olur, torpaqlarımızın işğaldan azad edilməsi üçün can atırıq. Hər bir Azərbaycan əsgərinin arzusu budur ki, torpaqlarımızın düşməndən azad edilməsi onun hərbi xidmət dövrünə təsadüf etsin. Mən də Böyük Qələbə uğrunda döyüşənlərin sıralarında olmaq istəyirəm. Böyüyüb boya-başa çatdığım yerlərə ərazi bütövlüyümüzü bərpa edən ordunun əsgəri olaraq qayıtmaq istəyirəm."

- Hərbi xidmət müddətində müxtəlif bölgələrimizdən olan əsgərlərlə tanış oldum. Onların bir çoxu ilə möhkəm dost olmuşam. Sevinirəm ki, Vətənimizin hər yerində güvənə biləcəyim dostlarım var. Onlar doğulub böyüdüyü yerlərdən, oraların tarixi abidələrindən, erməni qəsbkarlarına qarşı döyüşən qəhrəmanlarımızdan və şəhidlərimizdən danışırlar. Xidmətimi başa vurduqdan sonra əsgər dostlarımla daim əlaqə saxlayacaq, onların şad günlərində yanlarında olacağam. Atam həmişə deyərdi ki, hərbi xidmətdə yaranan dostluq əbədidir. Harada olmağından asılı olmayaraq, hər zaman köməyinə gələr. Çünki düşmənə qarşı döyüşəndə kürəyini yalnız ona söykəyirsən. Asudə vaxtlarımızın da həm səmərəli, həm də maraqlı keçməsi üçün çalışırıq. Əsgər yoldaşlarımızla məşğələlərdə öyrəndiklərimizi təkrarlayırıq. Hər hansı bir sual yarananda komandirlərimizdən soruşuruq. Çalışırıq ki, nə qədər vaxtımız var, öyrəndiklərimizi daha dərindən mənimsəyək.



Döyüş əmri veriləndə yalnız irəli atılaraq, düşməni törətdikləri vəhşiliklərə görə peşman edək, - bu sözləri əsgər Rəfail Məmmədov deyir.

Əsgər Ramin Əzizov xidməti borcunu yerinə yetirməsindən fəxrlə danışır. Deyir ki, əsgəri xidmətə gəlməmişdən qabaq dostları ona hərbi hissədə olan nizam-intizamdan, komandirlərin şəxsi heyətə qarşı diqqət və qayğısından, əsgərlər üçün yaradılan sosial-məişət şəraitindən danışıb. "Artıq xidmətimin çox hissəsini geridə qoymuşam. O günlərin necə keçdiyini hiss etmədim. Çünki xidmətim dövründə bölmədə yüksək nizam-intizam, əsgərə qayğı gördüm. Düşmənlə təmas xəttində xidmət etməyimdən şərəf duyuram. Mövqedə olan səngərlərin hər daşına, qayasına bələdəm. Xidmətimi başa vurduqdan sonra da hər zaman düşmənlə mübarizəyə hazıram. Bütün dünyaya məlumdur ki, ermənilər qorxaq, nizam-intizama tabe olmayan, tarix boyu onun-bunun kölgəsində sürünən millətdir. Biz işğal altındakı torpaqlarımızı azad etmək iqtidarındayıq. Bunu 2016-cı ilin aprelində və ötən ilin mayında bütün dünyaya sübut etdik. Qoy düşmən bilsin ki, Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə qısa müddətdə ərazi bütövlüyümüzü bərpa edəcək."

Əsgərlər Ceyhun Qədirov, Mehdi Güləliyev və digərləri fiziki və döyüş hazırlıqlarının yüksək səviyyədə olmasından, asudə vaxtların maraqlı və səmərəli təşkil edilməsindən, bölmədə müxtəlif növ yarışların keçirilməsindən, vətənpərvərlik mövzusunda kinofilmlərin nümayiş etdirilməsindən danışırlar.

Onların sözlərindən aydın olur ki, Vətənin müdafiəsi kimi şərəfli vəzifənin onlara həvalə olunduğundan qürur duyurlar. Ürəkləri Vətən sevgisi ilə döyünən əsgərlərimizlə biz həm də tarixi torpaqlarımıza qayıdacağıq - haqqı və tarixi ədaləti bərpa etmək üçün. Bu ədaləti isə dədə-babalarımızın bizə əmanət qoyduğu torpaqlara sahib çıxaraq qüdrətli Azərbaycan Ordusu bərpa edəcək.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

# Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıq sahəsində yeni layihələr müzakirə olunub

*Aprelin 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Rusiya arasında hərbi, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən Azərbaycan Ordusunun döyüş qabiliyyətini gücləndirəcək yeni hərbi-texniki layihələr müzakirə olunub.

Tərəflər iki ölkənin Müdafiə nazirliklərinin nümayəndə heyətləri arasında işçi görüşlərin təşkili, birgə hərbi təlimlərin keçirilməsi, Xəzər dənizində iki ölkənin hərbi gəmilərinin qarşılıqlı səfərlərinin davam etdirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

Səfir Rusiyanın Azərbaycanda yeni təyin olunan hərbi attaşesi polkovnik Andrey Aleksensevi general-polkovnik Zakir Həsənova təqdim edib.

Müdafiə naziri yeni təyin olunan hərbi attaşeni ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edib və Azərbaycan ilə Rusiya arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində uğurlar arzulayıb.

# Müdafiə Nazirliyinin vətəndaşlara və KİV nümayəndələrinə müraciəti

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ordu ilə xalq arasında əlaqələrin daha da möhkəmləndirilməsi, ictimaiyyət nümayəndələrinin hərbi hissələrdə həyata keçirilən quruculuq işləri, eləcə də valideynlərin övladlarının xidməti şəraiti ilə əyani şəkildə tanış olmaları məqsədilə Müdafiə Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir.*

Görülən bu işlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Lakin son günlər müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin hərbi hissələrə, xüsusilə də ön xətdə yerləşən bölmələrə səfərlərindən sonra ayrı-ayrı vətəndaşlarımızın mobil telefon, videokamera və fotoaparat vasitəsilə hərbi hissələrin ərazisində çəkdikləri kadrlar sosial şəbəkələrdə yayılır, müxtəlif şərhlər paylaşılır. Beləliklə də, "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq tələbləri pozularaq düşmənə ordumuz barədə məlumatlar əldə etmək imkanı yaradılır.

Müdafiə Nazirliyi bildirir ki, hərbi hissələrin və ön xətt bölmələrimizin, xüsusilə də onların şəxsi heyətinin təhlükəsizliyi baxımından bu cür hallar yolverilməzdir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## BQXK-nın nümayəndələri hərbi qulluqçularla görüşüblər

2019-cu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin dəstəyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə hərbi qulluqçular üçün Gəncə Qarnizonu Zabitlər Evində beynəlxalq humanitar hüquq mövzusunda seminar keçirilib.

BQXK-nın Azərbaycan nümayəndəliyinin əməkdaşları şəxsi heyət qarşısında müxtəlif mövzularda çıxış edib və onları maraqlandıran sualları cavablandırıblar.

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 10-da Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***12 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# “Xalqımızın qəhrəmanlıq ənənələrini şərəflə yaşadırıq”

*Bu gün ordumuzda ömrünün mənasını Vətənə, xalqa, dövlətə xidmətdə görən gənc vətənpərvər zabit heyəti xidmət edir. Təbii ki, hər kəs seçdiyi peşənin özəlliyini, qayəsini, məna tutumunu gözəl bilir. Müəllim, həkim, mühəndis... Fikrimcə, peşələrin içərisində ən müqəddəsi və ən şərəflisi hərbçi peşəsidir - Vətəni, torpağı qorumaq peşəsidir. Bu yolda boran da var, qış da var. Lakin çətinliklər qorxutmur onları. Sevgiləri ilə qəlblərini isitdiyi Vətənin, torpağın keşiyində əzmlə dayanırlar.*



Vətənimizin müdafiəsində əzmlə dayanan gənc zabitlərimizdən biri də baş leytenant Fərid Qarayevdir. Fərid əvvəlcə C.Naxçıvanski adına Hərbi Liseyi, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriya ixtisası üzrə bitirib. Deyir ki, əmiləri hərbçidir. Qardaşı baş leytenant Faiq Qarayev də ali hərbi təhsil alıb. Hər ikisi aprel döyüşlərində iştirak edib. Faiq motoatıcı qoşunlarda Bayraqtəpə, Fərid isə artilleriya qoşunlarında Lələtəpə istiqamətində döyüşüb.

Baş leytenant Fərid Qarayev cəbhə xəttində yerləşən "N" hərbi hissəsində xidmət edir. Nəzəriyyədən, təcrübədən qazandığı bilikləri böyük həvəslə şəxsi heyətə aşılayan gənc zabit xidmətin xüsusiyyətlərinin dərindən mənimsənilməsi üçün praktiki çalışmalara daha çox zaman ayırdığını dedi: "Orduda qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün bölmələrin təkcə silah və texnika ilə təminatı, şəxsi heyətin peşə vərdişlərinin artırılması ilə yetərli olmur. Bu mənada, şəxsi heyətin döyüş ruhunun yüksəlməsində mənəvi-psixoloji hazırlıq da çox önəmlidir. Ruh olmasa döyüşə bilməzsən. Aprel döyüşləri ruhla gücün döyüşü idi. İllərdir erməni təcavüzkarlarının hücumuna məruz qalan torpaqlarımız qeyrətli Vətən oğullarının sayəsində əzmlə qorunur, düşmənin atəş nöqtələri yerindəcə susdurulur. Düşmən birdəfəlik anlamalıdır ki, dövlət müstəqilliyimizin dayağı olan ordumuz gündən-günə gücünü, peşəkarlığını artırır. İşğal altındakı torpaqlarımızı azad etməyə hər an hazırdır. Vətən andımız, xalqımıza, dövlətimizə olan sədaqətimiz qarşıya çıxan çətinliklərin qətiyyətlə dəf edilməsində gücümüzü daha da artırır. Şəxsi heyət yüksək döyüş hazırlığına malikdir."

Fərid düşmənə hər zaman xatırlanması vacib olan məqamlardan da danışdı: "Xalqımız qəhrəman xalqdır. Şanlı hərb tariximiz, qəhrəmanlıq tariximiz var. Biz Babəklərin, Cavanşirlərin, Xətailərin, Cavad xanların nəsliyik. Şərəflə ulu babalarımızın miras qoyduğu döyüş ənənələrini, qəhrəmanlıq ənənələrini yaşadırıq. Biz onların yolunu davam etdiririk."

Söhbətindən aydın olurdu ki, gənc zabit Azərbaycanımızın dövlətçilik və hərb tarixini, sərkərdəlik tarixini dərindən bilir. Bu sahədə mütaliəsi zəngindir. Hətta bizə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarovun Lənkəranda olarkən balaca Həzi ilə görüşünü və kursant olduğu dövrdə böyük sərkərdə ilə dialoqunu da xatırlatdı.

Müqəddəs hərb peşəsinin çətinliklərini asanlıqla dəf edən Fərid də doğma torpaqlarımızın, Qarabağımızın, Şuşamızın azadlığı uğrunda döyüşlərə hər an hazırdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*"Heydər Əliyev irsini öyrənirik"*

# Tarixi şəxsiyyətlər xalqın əvəzsiz milli sərvətidir

1991-ci ildə Azərbaycanda milli-azadlıq hərəkatı dövlət müstəqilliyinin bərpa olunması ilə nəticələndi. Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. AXC hakimiyyəti xalqın etimadını doğrulda bilmədi. Ölkədə hakimiyyətsizlik, milli qarşıdurma, real vətəndaş müharibəsi, dövlətin parçalanması, dövlətçiliyin itirilməsi təhlükəsi yarananda xalq təkidlə fenomenal dövlətçilik istedadına malik olan böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə çağırdı. Azərbaycan dövlətçiliyi xilas edildi. Qətiyyət, dövlətə, dövlətçiliyə sədaqət, xalqa, millətə sevgi bu təhlükələri aradan qaldırdı. Bu tarix azərbaycançılıq ideologiyasının təntənəsi kimi əbədi yaşayacaq.



Respublikada bütün sahələr üzrə dinamik inkişafın əsası qoyuldu, beynəlxalq layihələr imzalandı ki, bununla da Azərbaycanın iqtisadi inkişafına əsaslı zəmin yaranmaqla Azərbaycanın beynəlxalq nüfuzunu da yüksəltdi.

Digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da qlobal islahatlara başlanıldı. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı. Az vaxt ərzində Azərbaycan Ordusu nizami ordu kimi formalaşmağa başladı. 1994-cü ilin yanvarında Ulu Öndərin sərkərdəliyi ilə uğurlu Horadiz əməliyyatı keçirildi. Bu əməliyyatla qazanılan qələbə ordumuzun döyüş əzmini artırdı, qələbə ruhunu yüksəltdi. Bunlar Azərbaycanda ordu quruculuğunda nizami ordunun formalaşması mərhələsi oldu.

Böyük tarixi şəxsiyyət qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu qürur xalqa, millətə, dövlətə, dövlətçiliyə bağlılığın qürurudur. Bu qüruru harada yaşamasından asılı olmayaraq Vətənini sevənlərin hamısı yaşayır...

Ordu quruculuğu dövlət üçün prioritet məsələlərdən biri kimi həmişə diqqətdə saxlanılır, ordunun maddi-texniki bazası genişləndirilir, silah-sursat arsenalı artırılır ki, bunlar da şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin edir.

Ümummilli liderimiz Heydər Əliyev şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün tez-tez ön xətdə, səngərlərdə zabit və əsgərlərlə söhbət edir, onlara vacib tövsiyələr verirdi ki, bunlar da öz təsirini göstərirdi. Ordu quruculuğunda Heydər Əliyev mərhələsi şəxsi heyətin döyüş qabiliyyətinin mənəvi-psixoloji hazırlıqla üzvi şəkildə tamamlanması kimi tarixləşdi və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğunda da uğurla davam etdirməklə Azərbaycan Ordusunu dünyanın ən güclü orduları sırasına çatdırdı. Ölkə Prezidentinin dediyi kimi: "İndi Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır".

Sovetlər dönəmində Mərkəzin istəmədiyi ibtidai hərbi məktəbin yaradılmasına, ona ruz qalmış azərbaycanlı sərkərdənin - Cəmşid Naxçıvanskinin adının verilməsinə nail olmaq zaman anlamında xalqın sabahlarına qayğı idi. Bu qayğının bəhrəsi Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra özünü olduqca şəbəkəli səviyyədə büruzə verdi.

Bakıda Dünya Azərbaycanlılarının I qurultayı Ulu Öndərin təşəbbüsü ilə keçirildi. Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı müharibə şəraitində belə bir qurultay qeyri-rəsmi milli-ideoloji səfərbərlik idi. Belə bir dəyərli təşəbbüs uğurla davam etdirilir.

Böyük tarixi şəxsiyyət, ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinin başlıca mahiyyəti azərbaycançılıq məfkurəsidir. Bu məfkurə Azərbaycan dövlətçiliyinin ən etibarlı qarantlarından biridir. Bu məfkurənin tərkib hissələri milli mədəniyyətdir, incəsənətdir, rəngkarlıqdır, ədəbiyyatdır, xalqın, dövlətçiliyin tarixidir. Ulu Öndər hələ sovetlər dönəmində xalqımızın milli qüruru olan neçə-neçə tarixi şəxsiyyətin adının əbədiləşdirilməsinə nail olmuşdu. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bu proses daha da dönməzləşdi, ədəbiyyat, incəsənət, mədəniyyət tarixində misilsiz xidmətləri olmuş tarixi şəxsiyyətlərin adının əbədiləşdirilməsi milli mentalitet səviyyəsinə yüksəldildi.

Tarixin axarını xalqının rifahı naminə dəyişməyi bacaran böyük tarixi şəxsiyyətlər xalqın əvəzsiz milli sərvətləridir...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## "Azərbaycanda böyük uğurların əldə olunması xalqın öz liderinə inamından qaynaqlanır"

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver Prezident İlham Əliyevin bir illik fəaliyyətini şərh edərkən bildirib. Ötən bir ildə Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin dinamik inkişafına mühüm töhfələr verdiyini vurğulayan professor dövlət başçısının TANAP və "Star" neft emalı zavodu layihələrinin gerçəkləşməsi üçün möhkəm siyasi iradə nümayiş etdirdiyini diqqətə çatdırıb.

Akkan Suver deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin və Bakının erməni-daşnak işğalından azad olunmasının 100 illik yubileyləri ilə bağlı dövlət mərasimlərində Azərbaycanın və Türkiyənin eyni sevgi ilə iştirak etməsi iki ölkənin və xalqın əbədi qardaşlığı ilə bağlı dünyaya verilən mühüm mesajdır. Cocuq Mərcanlının müasir standartlara uyğun olaraq yenidən qurulması, vaxtilə burada yaşamış insanların öz doğma yurdlarına qayıtmaları 2016-cı ilin Aprel zəfərindən sonra Azərbaycanın növbəti böyük qələbəsidir. Əlbəttə ki, Azərbaycan xalqı bütün bunları yüksək dəyərləndirir və öz liderinin ətrafında möhkəm birləşir. Dövlət başçısı xalqın dəstəyinə və inamına söykənərək ölkədə sosial-iqtisadi inkişafı uğurla davam etdirir. Bu günlərdə Fransanın peşəkar tədqiqat mərkəzlərindən biri olan "Opinion Way" şirkətinin Azərbaycan Prezidentinin son 1 il ərzindəki fəaliyyəti ilə bağlı çoxsaylı respondentlərin iştirakı ilə keçirdiyi sorğunun nəticələri də Azərbaycan xalqının öz Prezidentinə olan inamını, dəstəyini bir daha sübut etdi.

# MTT Baş İdarəsində cari ilin birinci rübünün yekunlarına dair toplantı keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Maddi-Texniki Təminat (MTT) Baş İdarəsində 2019-cu ilin birinci rübünün yekunlarına dair toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda MTT Baş İdarəsinin tabeliyində olan arsenal, baza, anbar və hərbi hissələrdə döyüş hazırlığının vəziyyəti, şəxsi heyətin mənəvi-psixoloji durumu, qoşun xidməti və hərbi intizamın təhlili aparılıb. Müvafiq xidmətlərə cavabdeh şəxslər görülən işlərlə bağlı ətraflı məruzələrlə çıxış ediblər.

Yekunda cari ilin ikinci rübündə hərbi hissələrin silah-sursat, ərzaq, əşya və əmlak təchizatı, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı Müdafiə nazirinin tapşırıqları vəzifəli şəxslərə çatdırılıb.



Milli qəhrəmanlarımız

# Xatirələrdə yaşayan ömür




*Azərbaycan Texniki Universitetində Milli Qəhrəman Şövqiyar Abdullayevin 50 illik yubileyinə həsr olunmuş anım mərasimi keçirildi. Tədbir Azərbaycan Texniki Universitetinin və Veteran Tankçılar Birliyinin birgə təşkilatçılığı ilə reallaşdı. Anım mərasimində Müdafiə Nazirliyinin əməkdaşları, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin nümayəndələri, Qarabağ müharibəsinin iştirakçıları, universitetin müəllim və tələbə heyəti, şəhidin ailə üzvləri və digər qonaqlar iştirak etdilər. Hərbi orkestrin müşayiəti ilə universitetdə şəhidlərin xatirəsinə əbədiləşdirilən abidə-kompleksinin önünə gül dəstələri düzüldü. Dövlət himni səsləndirildi.*

Aparıcı Şəmistan Əlizamanlı tədbiri açıq elan etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Universitetin rektor əvəzi professor Xaliq Yahudov qonaqları salamlayaraq, Vətən, torpaq uğrunda canından keçən oğulların anım günlərinin mütəmadi olaraq təhsil ocağında keçirildiyini vurğuladı. Rektor ölkə Prezidenti İlham Əliyevin hər zaman şəhidlərin döyüşlərdə göstərdikləri şücaətini yüksək qiymətləndirdiyini, eyni zamanda, şəhid ailələrinin dövlət qayğısı ilə daim əhatə olunduğunu bildirdi və torpaq uğrunda canından keçən bütün şəhidlərin qəhrəmanlıqlarını tarixi qəhrəmanlıq adlandırdı. Natiq tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, universitetin "Avtomatika və kompüter texnikası" fakültəsinin məzunu, 1992-ci ildə könüllü olaraq milli ordu sıralarına yazılan, tank komandiri kimi ən ağır döyüşlərdə iştirak edib, düşməni çoxlu sayda itkilərə məruz qoyan, sonda şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevin, həmçinin bütün şəhidlərin döyüşlərdə göstərdiyi igidliklər tələbələrə nümunə kimi təbliğ olunur və onların xatirəsi daima əziz tutulur.



Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Rauf Dəmirov Qarabağ müharibəsinin birinci mərhələsində döyüşlərin ağır şəraitdə aparıldığını qeyd etdi. Zabit çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycanda müasir ordu quruculuğuna verdiyi əvəzsiz töhfələrdən, bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun dünyanın ən güclü orduları sırasında yer almasından bəhs etdi: "Ordumuzun gücü, yüksək peşəkarlığı Aprel döyüşlərində öz təsdiqini tapdı. Qarabağ müharibəsinin ilk illərində könüllü döyüşçülərdən ibarət şəxsi heyət döyüşürdüsə, artıq 2016-cı ildə ordumuzun yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı peşəkar zabit və əsgər heyəti döyüşürdü. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, eyni zamanda, düşmən işğalında olan torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın hər an "İrəli" əmrini gözlədiyini göstərdi."

Tədbirdə qəhrəmanın komandiri olmuş Hacı Əzimov və döyüşçü yoldaşı Bəxtiyar Dəmirov Şövqiyarla bağlı xatirələrini bölüşdülər. Bildirdilər ki, Şövqiyar doğulduğu Göyçə mahalını, Nərimanlı kəndini, Qarabağı, Şuşanı, Laçını, Azərbaycanı çox sevirdi. O vətənpərvər, qətiyyətli döyüşçü, hər zaman öndə gedən nümunəvi əsgər kimi hər kəsin yaddaşında qaldı. 1992-ci il avqustun 27-də Ağdərənin Sərsəng su hövzəsi yaxınlığında Dranbon kəndi uğrunda gedən ağır döyüşlərdə yoldaşlarını əsir düşməkdən xilas etdi. Özü isə Vətən uğrunda qəhrəmanlıqla şəhid oldu. Çox arzulayırdı ki, müharibə başa çatsın, öz ata-baba yurduna - Göyçəyə, Nərimanlı kəndinə dönüb, orada yaşasın. Vətəni, torpağı uğrunda canından keçən Şövqiyarın şərəfli döyüş yolu bütün Azərbaycan gənclərinə nümunədir.

Mərasimdə çıxış edən Şövqiyar Abdullayevin atası Cəmil Abdullayev və Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin nümayəndəsi, Milli Qəhrəman Rövşən Əliyevin bacısı Fəranə Alıyeva ölkəmizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərimizə göstərdikləri yüksək hörmət və ehtiramlarından, şəhid ailəsi olaraq dövlətimizin daima diqqət və qayğısı ilə əhatə olunduqlarından danışdılar.

Anım mərasimi "Dədə Qorqud" Milli Fondunun sədri Eldar İsmayılovun qəhrəmanın



ölümündən sonra layiq görüldüyü "Həzi Aslanov" ordeninin atası Cəmil müəllimə təqdim olunması ilə davam etdi.

Tədbirdə Şuşa Humanitar Kollecinin ansamblının üzvləri və Xətai rayonu 171 saylı orta məktəbin şagirdləri Vətənə, torpağa, bayrağa həsr olunmuş mahnı və şeirlər səsləndirdilər.

Anım mərasimi sözləri və musiqisi şair, bəstəkar Şahin Musaoğluna məxsus "Tankçılar" mahnısı və Şəmistan Əlizamanlının ifasında "Əsgər" marşı ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# "Böyük Qələbə sevincini yaşadacağıq"

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Vətənin keşiyində dayanan oğullarımızla söhbətləşirik. Onların hər kəlməsindən Vətənimizə, millətimizə nə qədər bağlı olduqları sezilir. Hər biri tezliklə torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəkləri günü gözləyir.*

Bunun üçün əsgərlərimiz komandirlərinin öyrətdiklərini mənimsəyərək, xidmətlərini günün nizam qaydasına uyğun olaraq təşkil edirlər. Leytenant Yusif Məmmədova "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istəyimizi bildirəndə xeyli fikirləşdi. "Tabeliyimdə xidmət edənlərin hamısı vəzifə borclarının öhdəsindən layiqincə gəlirlər. Bu səbəbdən bilmirəm hansının adını çəkim. Hesab edirəm ki, əsgərlərinə qarşı qayğısını əsirgəməyən manqa komandiri, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçu əsgər Elmar Əliyevin adını çəksəm, lap yerinə düşər".

Ətraf mühit insanın formalaşmasında, onda Vətən sevgisinin güclənməsində xüsusi rol oynayır. Gənclərimizin vətənpərvər ruhda tərbiyə olunmasında valideynlərinin əməyi böyükdür. Hətta gənclərin ordu sıralarına yolasalma mərasimi də onların düşüncəsinə müsbət mənada təsir edən amillərdəndir. Sevgi, məhəbbətlə yola salınan oğullarımız Vətənimizin ərazi bütövlüyünü fərəhlə qoruyurlar. Xalqımıza sülh, əmin-amanlıq, firavan həyat istəyən əsgərlərimiz hər an müharibəyə hazırdırlar. Necə deyərlər, Vətənə xidmət



yalnız hərbi xidmətlə sərhədlənmir, bu hər bir vətəndaşın işində özünü büruzə verməlidir. Ordu sıralarında xidmət edən zabitlərimizin əsgərlərinə nə qədər qayğıkeş olduqları göz qabağındadır. Leytenant Yusif Məmmədovun sözlərindən hiss edilirdi ki, Elmara güvəni sonsuzdur, onun kimi əsgəri olmağıyla qürur duyur.

Elmar xidmətinin təşkilindən, üzərinə düşən vəzifələrdən söz açdı:

- Artıq xeyli müddətdir Vətənimizin keşiyində dayanıram. Üzərimə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşürəm. Çalışıram ki, xidmətə təzə gələn əsgər yoldaşlarıma köməklik göstərim. Vətənimə qüsursuz xidmət etməyi özümə mənəvi borc bilirəm. Hamımızın bir amalı var - ata-baba yurdumuzu düşmən tapdağından azad edək. Bunun üçün də hər birimiz xidmətimizi düzgün təşkil etməliyik, hər an döyüşə hazır olmalıyıq. Ölkə rəhbərliyi nümunəvi xidmət etməyimiz üçün hər cür şərait yaradıb. Belə diqqət və qayğı hər birimizə yüksək döyüş ruhu aşılayır.

Söhbət zamanı əsgər Elmar Əliyev bildirdi ki, idman insanın formalaşmasında əsas amillərdən biridir. "Fiziki cəhətdən möhkəm olmağımız üçün komandirlərimizin rəhbərliyi altında idmanla məşğul oluruq. Komandirlərimiz döyüş və fiziki hazırlığımızı daima diqqət mərkəzində saxlayırlar. Onlar həmişə vurğulayırlar ki, düşmənlə üzbəüz döyüşdən qalib ayrılmalıyıq. Döyüş mövqeyində ayıq-sayıq dayanırıq, düşmənin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. İnanırıq ki, tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal olunan torpaqlarımızı düşmən tapdağından azad edəcəyik. Hər gün xidmətimizi döyüşə girəcəyimiz gün kimi təşkil edirik".

Elmarla söhbətimizdən sonra əmin oluruq ki, Azərbaycan Ordusunun gücü belə mərd oğullarındadır. Sıraları Vətəninə ürəklə bağlı oğullarımızın xidmət etdiyi ordumuz xalqına Böyük Qələbə sevinci yaşadacaqdır.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən İkinci Dünya müharibəsi haqqında tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.**

**2. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

**3. Azərbaycan İkinci Dünya müharibəsi illərində.**

*Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması*

1933-cü ildə Almaniyada Adolf Hitler başda olmaqla faşistlər hakimiyyətə gəldilər. Həmin dövrdən öz hərbi qüdrətini artıraraq Avropanın işğalına hazırlaşan Almaniya 1939-cu il sentyabrın 1-də Polşaya hücum etdi. Beləliklə, İkinci Dünya müharibəsi başlandı. Qısa müddət ərzində Avropanın əksər dövlətlərini işğal edən və ya öz təsiri altına alan Almaniya keçmiş SSRİ-yə (Azərbaycan Respublikası o vaxtlar Sovet İttifaqının tərkibində idi) hücum ərəfəsində böyük hərbi potensiala malik idi.

Almaniya 1941-ci il iyunun 22-də qəflətən SSRİ üzərinə hücum etdi. 190 alman diviziyası SSRİ-nin bütünlükdə qərb sərhədləri boyunca hərəkətə gəldi. SSRİ-də yaşayan bütün xalqların, o cümlədən Azərbaycan xalqının həyatında ağır iz buraxmış Böyük Vətən müharibəsi başlandı. Müharibə başlanan gün Bakı şəhərində izdihamlı mitinq keçirildi. Alimlər, yazıçılar, neftçilər, maşınqayıranlar Azərbaycan xalqını bu ağır günlərdə birliyə, düşmən üzərində qələbə naminə səyləri birləşdirməyə çağırdılar.

Azərbaycanın digər şəhər və kəndlərində də mitinqlər təşkil edildi. Mitinqlərdən sonra insanlar hərbi komissarlıqlara gedir, ordu sıralarına yazılırdılar. Müharibənin ilk 3 gündə Azərbaycandan 25.984 nəfər könüllü müharibəyə yola düşdü. Artıq 4 iyul 1941-ci il tarixdə Bakı şəhərində 75 min, Naxçıvan Muxtar Respublikasında 7 min, Gəncədə 10 min azərbaycanlı ordu sıralarına yazılmışdı. Bütövlükdə Azərbaycan üzrə 1941-ci ildə 186,7 min nəfər belə dəstələrin sırasına qoşulmuşdu. 1943-cü il yanvarın 1-dək Azərbaycandan döyüşən hərbi hissələrə göndərilənlərin sayı 464.468 nəfər olmuşdur. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan müharibəyə 600 mindən çox insan getmiş, onların yarıdan çoxu cəbhədə həlak olmuşdur. Respublikada 87 atıcı taboru və 1124 ərazi özünümüdafiə dəstəsi yaradılmışdı. On minlərlə fəhlə, kəndli və ziyalı Azərbaycanda formalaşdırılmış diviziyalara səfərbər edilmişdi. 402-ci atıcı diviziya formalaşanda onun sıralarına 9 min döyüşçü cəlb olunmuşdu.

Qısa müddət ərzində döyüşən hissələr üçün respublikada 15 min tibb bacısı, 750 rabitəçi, 3 min sürücü hazırlanıb cəbhəyə göndərilmişdi.

Azərbaycan döyüşçüləri sovet ordusu sıralarında qəhrəmancasına vuruşurdular. 77-ci, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaların tərkibində onlar Qafqaz dağlarında, Ukraynada, Pribaltikada və Şərqi Avropa ölkələrində vuruşaraq, faşizm üzərində qələbənin qazanılmasına öz layiqli töhfələrini vermişlər. 77-ci diviziya Kerç, Krım uğrunda döyüşlərdə iştirak edərək, 1500 yaşayış məntəqəsini düşməndən azad etmişdir. 416-cı diviziyaya Taqanroq şəhərini düşməndən azad etdiyinə görə 1943-cü il avqustun 30-da "Taqanroq diviziyası" adı verilmişdir. 416-cı diviziya Melitopol, Odessa, Kişinyov şəhərlərinin, Polşa torpaqlarının azad olunmasında iştirak etmiş, Almaniyanın paytaxtı Berlinə daxil olan, Reyxstaqın binasına hücum edən diviziyalar sırasında olmuşdur. 416-cı diviziyanın 8 döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına, 14.369 nəfəri isə müxtəlif orden və medallara layiq görülmüşdür.

223-cü atıcı diviziya Qafqazın 50-dən çox yaşayış məntəqəsini düşməndən azad etmiş, Yuqoslaviyanın paytaxtı Belqrad şəhərinin azad olunmasında fərqlənmişdir.

*Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları*

Azərbaycan xalqının qəhrəman oğulları Həzi Aslanov, Ziya Bünyadov, Məlik Məhərrəmov, Qafur Məmmədov, Hüseynbala Əliyev, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Gəray Əsədov, Akim Abbasov və başqaları İkinci Dünya müharibəsi illərində unudulmaz qəhrəmanlıqlar göstərmişlər. Onlar Moskva və Stalinqrad, Krım və Qafqaz, Kiyev və Smolensk ətrafında gedən döyüşlərdə vuruşaraq respublikamızın şərəfini qorumuşlar.

Hələ müharibənin ilk ilində Moskva ətrafında gedən döyüşlər zamanı fədakar Azərbaycan oğlu İsrafil Məmmədov Novqorod vilayətinin Nustinko kəndi yaxınlığında kiçik bir dəstə ilə hitlerçilərin bir taborunun hücumunun qarşısını almış, 300 nəfərdən artıq faşist məhv etmişdi. Stalinqrad döyüşlərində Həzi Aslanovun tank alayı düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini, eyni zamanda, 2 min nəfərədək zabit və əsgərini məhv etmiş, 13 tankını və 175 avtomaşınını ələ keçirmiş, 700 nəfəri əsir götürmüşdü. 1942-ci ilin dekabr döyüşlərinə görə alayın 100-dən artıq döyüşçüsü orden və medallarla təltif olunmuşdur. Həzi Aslanova isə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Tank qoşunları general-mayoru Həzi Aslanov yeganə azərbaycanlıdır ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

1944-cü ildə gedən döyüşlər zamanı Gəray Əsədov xalqımızın adını bir daha yüksəltdi. O öz sinəsi ilə düşmən pulemyotunu susduraraq yoldaşlarının hücumunu təmin etmişdi.

Müharibənin ilk günlərindən Azərbaycanın şahinləri faşistlərə qarşı mərdliklə vuruşurdular. 13 iyul 1941-ci ildə Leninqrad səmasının keşiyində leytenant Hüseynbala Əliyev dörd faşist təyyarəsini vurduqdan sonra özü 17 yara alsa da, təyyarəsini yerə endirə bilmişdi. Təyyarəçi Yusif Quliyev özünü qorxmaz səma döyüşçüsü kimi göstərmiş, dörd faşist təyyarəsi ilə döyüşə girərək, ikisini məhv etmiş, qalan ikisi isə qaçmışdır.

Azərbaycanlı döyüşçülər Avropa ölkələrində antifaşist azadlıq hərəkatında da qəhrəmancasına vuruşurdular. Adriatik dənizi sahillərində "Mixaylo" ləqəbli qorxmaz, fədakar azərbaycanlı balası Mehdi Hüseynzadənin partizanlar arasında göstərdiyi qəhrəmanlıqların sorağı hər yerə yayılmışdı. Qəhrəmancasına həlak olmuş Mehdi Hüseynzadəyə müharibədən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

İkinci Dünya müharibəsi illərində 123 nəfər Azərbaycan vətəndaşı göstərdikləri şəxsi igidliklərə və şücaətlərə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 34 nəfər isə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.

Sovet İttifaqı qəhrəmanlarından 43 nəfəri milliyyətcə azərbaycanlıdır. Onlardan biri olan Məlik Məlik oğlu Məhərrəmov 1943-cü ildə öz bölüyü ilə Dnepr çayını birinci keçərək qarşıya qoyulmuş döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun həyat yolu və cəbhə qəhrəmanlıqları haqqında Abdulla Qurbaninin "Fırtınalar qoynunda" sənədli povestində ətraflı məlumat verilmişdir.

1941-1945-ci illərdə bütün SSRİ-dən cəmi 44 tibb işçisi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür ki, onların da ikisi Azərbaycan xalqının nümayəndəsidir. Müharibə illərində Azərbaycanın paytaxtı Bakı da düşmənin hava hücumlarına məruz qalmışdır. 1942-ci ildə alman təyyarələri Bakı səmasına 71 dəfə, 1943-cü ildə isə 3 dəfə hücum etmişlər. Bu hücumlar zamanı 96 düşmən təyyarəsi vurulmuşdur.

*Azərbaycan İkinci Dünya müharibəsi illərində*

Cəbhəni silah və sursatla, ərzaqla, geyimlə təmin etmək üçün müharibə illərində bütün Azərbaycan iqtisadiyyatı səfərbər olunmuşdu. Sovetlər birliyinin əsas neft bazası olan Azərbaycan müharibənin əvvəllərində SSRİ-də istehsal olunan neftin 70 faizindən çoxunu verirdi. Müharibə illərində neftçilərimiz cəbhəyə 75 milyon tona qədər neft, 22 milyon ton benzin və digər neft məhsulları göndərmişlər. Cəbhəyə göndərilən yüksək oktanlı təyyarə benzininin 85-90 faizi Bakıda istehsal olunurdu.

1942-ci ilin ikinci yarısında Azərbaycanda, əsasən Bakıda 130 növ silah, sursat və hərbi texnika buraxılırdı. Bakı zavodlarında "Katyuşa" reaktiv artilleriya qurğusu yığılırdı. Yerli sənaye müəssisələri az bir vaxtda müdafiə sənayesi profilində işləməyə keçmişdi. Müharibənin ilk iki ilində yüngül sənaye işçiləri döyüşçülər üçün artıq 30 növ məhsul buraxmağa başlamışdı. Rostov şəhərindən köçürülmüş ayaqqabı fabrikinin bazasında Bakıda ayaqqabı fabriki tikilmiş və istehsal bərpa edilmişdir. Ət və süd sənayesi müəssisələri yenidən qurulmuşdu.

Azərbaycanda 70-dən çox hərbi hospital təşkil olunmuşdu və bu hospitallarda 441.017 nəfər yaralı müalicə olunmuşdu. Azərbaycan dəmiryolçuları müharibə illərində cəbhəyə 1 milyon 300 min vaqon və 600 min sistern, Xəzər dənizçiləri isə 20 milyon ton hərbi və xalq təsərrüfatı yükləri daşımışlar.

Alimlərin, mühəndis-texniki, kənd təsərrüfatı mütəxəssislərinin yaradıcı gücü ordunun silah və sursatla təmin olunması, yerli resurslar hesabına sənaye və kənd təsərrüfatı məhsullarının artırılması işinə yönəldilmişdi. Görkəmli Azərbaycan alimi Yusif Məmmədəliyevin başçılığı altında kimyaçı alimlər 28 gün fasiləsiz işləyərək, yüksək keyfiyyətli aviasiya benzininin texnologiyasını hazırladılar. Ümumiyyətlə, Azərbaycan kimyaçıları müharibə illərində 100 növ kimya məhsulları, o cümlədən 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini, 8 adda dizel yağı istehsal etmişlər. Beləliklə, Azərbaycan xalqı respublika iqtisadiyyatının hərbi qaydada yenidən qurulması üçün yüksək peşəkarlıq göstərmişdi.

Azərbaycan xalqı 1941-1943-cü illərdə müdafiə fondu üçün 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 311 milyon manat pul toplamış, cəbhəyə 1,6 milyon ədəd müxtəlif əşya və 125 vaqon isti paltar göndərmişdi.

Böyük Vətən müharibəsi iştirakçılarına Azərbaycan dövləti tərəfindən həmişə böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasından olan Böyük Vətən müharibəsi iştirakçılarının "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 fevral 2015-ci il tarixli sərəncamı buna əyani sübutdur.

Böyük Vətən müharibəsi bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqların araşdırılması və təbliği bu gün də ciddi elminəzəri, siyasi və əməli əhəmiyyətə malikdir.

Hazırkı dövrdə Azərbaycan xalqı yeni bir düşmənlə Ermənistan Respublikasının işğalçılıq siyasəti ilə üzbəüzdür. Azərbaycan xalqı artıq dördüncü dəfədir ki, ermənilərin işğalçı siyasəti ilə üzləşir. 1905-1911, 1918-1924, 1948-1954, 1988-1994-cü illərdə Ermənistan ərazilərindən, öz tarixi dədə-baba yurdlarından qovulan azərbaycanlılar erməni daşnaklarının vəhşiliklərindən nicat yolunu Azərbaycan Respublikasında tapdılar.

XX əsrdə erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmır. Növbəti dəfə 1991-1994-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail oldu, Azərbaycan Respublikasının Qarabağ Muxtar Vilayəti və ona bitişik 7 inzibati rayon işğal edildi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dünya miqyasında apardığı məqsədyönlü siyasət və qayğı nəticəsində Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksək səviyyəyə çatdırılıb, ordumuz yeni müasir döyüş texnikası və silah-sursatla daim təchiz edilir. Artıq Azərbaycan Ordusu döyüş mövqeyində öz sözünü düşmənə diktə edir.

Azərbaycan Ordusunun cəsur əsgərləri təlimlərdə, döyüş hazırlığı və ictimai-siyasi hazırlıq dərslərində hərb işini daha da vicdanla öyrənməlidir. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın Qarabağ savaşında, qardaşlarımızın Aprel döyüşlərində və Naxçıvan əməliyyatında göstərdikləri qəhrəmanlıqları özlərinə örnək bilməlidirlər. Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması üçün aparılacaq döyüşlərdə onların bu igidliklərini təkrar etməyə hər an hazır olmalıyıq. Çünki biz Koroğlu, Babək, Şah İsmail Xətai, Həzi Aslanov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov, Murad Mirzəyev və Çingiz Qurbanov kimi Azərbaycan qəhrəmanlarının həmvətənləriyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Azərbaycan və Rusiya hərbi maliyyəçilərinin işçi görüşü keçirilib



Azərbaycan və Rusiya Müdafiə nazirlikləri arasında 2019-cu il üçün əməkdaşlıq planına əsasən, Bakıda "Silahlı Qüvvələrin maliyyə təminatı sahəsində təcrübə mübadiləsi" mövzusunda işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə hər iki ölkənin Müdafiə nazirliklərinin maliyyə və büdcə sahəsinə cavabdeh qurumlarının vəzifəli şəxslərinin və mütəxəssislərinin çıxışları olub, qarşılıqlı fikir mübadiləsi aparılaraq qabaqcıl təcrübənin tətbiqi ilə bağlı təkliflər dinlənilib.

# Azərbaycan XİN: Paşinyana ATƏT-in 1975-ci il Helsinki Yekun Aktı ilə tanış olmağı tövsiyə edirik

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistanın baş naziri Nikol Paşinyanın Strasburqda mətbuata açıqlamasında "təklifimiz Azərbaycanın Qarabağ məsələsində gücdən istifadə, gücdən istifadə ilə hədələmə və hərbi ritorikadan imtina etməsidir" fikrinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat xidmətinin şərhində deyilir: "Gücdən istifadə etməmək və gücdən istifadə ilə hədələməmək ifadələrini səsləndirən Ermənistanın baş nazirinə beynəlxalq hüququn bu prinsipləri barədə maariflənmək məqsədilə ATƏT-in 1975-ci il Helsinki Yekun Aktı ilə tanış olmağı israrla tövsiyə edirik. Helsinki Yekun Aktının məlum 10 prinsipi arasında ikinci yerdə sadalanan "gücdən istifadə etməmək və gücdən istifadə ilə hədələməmək" prinsipi ilə bağlı qeyd olunur: "Dövlətlər qarşılıqlı münasibətlərində, eləcə də, ümumiyyətlə, beynəlxalq münasibətlərində hər hansı ölkənin ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı və ya BMT və hazırkı bəyanatın məqsədlərinə uyğun olmayaraq güc tətbiqindən və gücdən istifadə ilə hədələmədən çəkinəcəklər".

Dünya ictimaiyyəti Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü tanıyır. BMT TŞ-nin 1993-cü il tarixli 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu vurğulanaraq, işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxması tələb olunur.

Gücdən istifadə olunmaması-nı təklif edən erməni baş nazirini bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunması naminə öz ölkəsinin silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması istiqamətində beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq təxirəsalınmaz addımlar atmağa çağırırıq".



# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti "BOO-2019" ikinci beynəlxalq konfransında iştirak edir

*Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin idarə rəisi general-mayor Ənvər Əfəndiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Moskva şəhərində keçirilən "Beynəlxalq ordu oyunları-2019" yarışlarının ikinci beynəlxalq konfransında iştirak edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir zamanı nümayəndə heyətləri yarışların şərtləri və qaydalarını müzakirə edir, eləcə də müsabiqənin təşkil olunacaq ərazilərə baxış keçirirlər.

Hərbçilərin beynəlxalq yarışlarında Azərbaycan Ordusunun nümayəndələrinin "Dəniz kuboku", "Tank biatlonu", "Artilleriya atəşi ustaları", "Snayper həddi", "Hərbi-tibbi estafet" və "Səhra mətbəxi" müsabiqələrində iştirakı planlaşdırılır.

"Beynəlxalq ordu oyunları-2019" yarışlarının cari ilin avqustun 3-dən 17-dək keçirilməsi nəzərdə tutulub.

# Ermənistan ordusunda kriminal hadisələr

Martın 26-da altıncı dağatıcı alayın əsgəri məruz qaldığı təhqirlərə, söyüşlərə və digər nizamnamədənkənar hallara etiraz əlaməti olaraq avtomatdan atəş açmaqla xidmət yoldaşlarını güllələyib.

İlkin olaraq, Ermənistan mətbuatı Əsgərandan çağırılan və mühəndis-istehkam bölüyündə xidmət edən hərbi qulluqçu Ara Arakelyanın naməlum səbəbdən öldüyünü bildirmişdi.

Bu gün isə hadisənin bəzi detalları məlum olub. Hələlik, adı və soyadı gizlədilən əslən Ermənistandan olan hərbi qulluqçu qarabağlılar tərəfindən təhqir edildiyinə görə avtomatla tabor komandiri Sasun Stepanyanı, "Qavroş" ləqəbli taborun qərargah rəisini, əsgərlər Andranik Koşkanyan və Ara Arakelyanı güllələyib. Nəticədə, A.Arakelyan aldığı güllə yaralarından yerindəcə ölüb. Digər 3 nəfər isə yaralanıb.

Hadisədən dərhal sonra qondarma rejimin prezidenti və hüquq mühafizə orqanlarının yüksək çinli əməkdaşları hərbi hissəyə gəliblər.

Öldürülən əsgər A.Arakelyanın valideynləri Ermənistan müdafiə nazirliyinin qarşısında çıxışlar edərək övladlarının hərbi hissədə məruz qaldıqları dözülməz münasibətdən, ac qalmalarından, geyim və dərmanların çatışmamasından danışıblar. Hadisənin böyüməsindən qorxan nazirlik rəhbərliyi onları yenidən Yerevandan Qarabağa göndəriblər. A.Arakelyanın valideynləri istintaq ədalətli aparılmazsa, sakit qalmayacaqlarını bəyan ediblər.

Dörd nəfəri güllələyən əsgər ilkin dindirmədə müstəntiqlərlə söhbətində məhz Ermənistandan olduğu üçün təhqirlərə məruz qalmasına etiraz əlaməti olaraq hadisəni törətdiyini bildirib. "İmkanım olsaydı, hamısını öldürərdim", - deyə əsgər qeyd edib.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında qeyri-döyüş şəraitində ölüm hallarının sayı artmaqda davam edir.

1999-cu il təvəllüdlü Hayk Xudoyan adlı əsgərin günahı üzündən baş verən mina partlayışı nəticəsində ən azı bir nəfər ölüb, üç nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Ölən və yaralı hərbi qulluqçular hospitala təxliyə ediliblər.

Fakt, hələlik, ictimailəşdirilməsə də, cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

Müdafiə Nazirliyinin hərbi hissələrinə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər aprelin 30-dək müvafiq sənədlərlə birlikdə, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə verməş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- məhkumluğun olmaması barədə qeydiyyatda olduğu rayon Polis İdarəsi (şöbə, bölmə) tərəfindən verilmiş arayış.

**Müraciət etmə yeri:** Birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyaları.

**Müraciət etmə vaxtı:** 2019-cu il aprelin 30-dək, hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etmələri xaric olunur.

AZƏRBAYCAN ORDUSU

## Nəsimi - 650

# Qəhrəmanlar yaşayır




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə şairin yubileyinin Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında sərəncam imzaladı və 2019-cu ili "Nəsimi ili" elan etdi. Bununla da Nəsimi yaradıcılığının hazırda azərbaycanlıların qəhrəmanlıq, mübarizlik, dönməzlik ruhunda böyümələrində, haqsızlıq və ədalətsizliklə barışmayacaqlarında oynadığı rolu təhlil etməyə geniş auditoriyalarda insanların diqqətinə çatdırmağa imkan yaradıldı.

Yerləşdiyi coğrafi strateji mövqeyinə və əhəmiyyətinə görə Azərbaycan müxtəlif dövrlərdə bütün istiqamətlərdən gələn təhlükələr ilə üz-üzə qalıb, lakin bu təhlükələrə qarşı amansız mübarizə aparıb. Mübarizlik nümunələri şanlı tariximizin hərb salnaməsinə əbədi daxil olub, ona görə də qədirbilən xalqımız haqlı olaraq bunları daima yaşadır. Bölgə uğrunda aparılan amansız mübarizədən daima əziyyət çəkən xalqımız, bu çətinliyə baxmayaraq dinini, dilini, şərəfli tarixi keçmişini qoruyub saxlamağı bacardı. Əlbəttə, bu o qədər də asan olmadı, bu yolda yüzlərlə, minlərlə igid oğullarımız qurban getdi, elm, incəsənət adamları, yazıçılar, şairlər, ziyalılar, xalq arasında nüfuz qazanan insanlar min bir əzab və əziyyətlə üzləşdilər.

Azərbaycan tarixinə nəzər saldıqda, belə acı səhnələrə və sonluqlara tez-tez rast gəlmək olur. Bunlardan birini də məhz Nəsimi yaşamışdı. O, öz yaradıcılığında mübarizlik ruhuna həmişə üstünlük vermişdi. Yazdığı fərqli qəzəlləri ilə mübarizlik və dönməzlik uğrunda özündən sonra gələn nəsillərə əbədi irs qoymuşdur.

Nəsimi yaradıcılığının əsasını təşkil edən mübarizlik gənclərin kamil vətəndaş kimi formalaşmasında, vətənpərvər ruhda böyümələrində, Vətənə və xalqa sədaqətlə xidmət etmə ruhunda yetişmələrində oynadığı rol danılmazdı.

Qədirbilən Azərbaycan xalqı, Nəsimini və onun yaradıcılığını, qoyduğu sönməz əbədi dönməzlik və mübarizlik irsini daima yaşadır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra xalqımız qarşısında xidmətləri olan dahi şəxsiyyətlərin yaradıcılığını, onların tarixi rolunu qiymətləndirmək daha asan olmuşdur. Hazırda öz inkişaf və çiçəklənmə dövrünü yaşayan Azərbaycanda əldə olunan nailiyyətlərdən maksimum yararlanaraq istənilən sahədə xalqımız qarşısında əməyi olan dahi şəxsiyyətlər qiymətləndirilir, onların yalnız Azərbaycan üçün deyil, həmçinin dünya elminə, mədəniyyətinə bəxş etdiyi töhfələri bir daha diqqətə çatdırılır.

Nəsimi öz yaradıcılıq fəaliyyəti ilə hələ öz dövründə baş verən haqsızlığa, ədalətsizliyə qarşı barışmazlığını açıq şəkildə qorxmadan nümayiş etdirmişdir. Üzləşdiyi çətinliklərə, işgəncələrə baxmayaraq əməlindən və sözündən dönməyən Nəsimi, əsl azərbaycanlı insanına xas xüsusiyyət nümayiş etdirmişdir. Elə ona görə də bu il Nəsiminin 650 illiyi təntənə ilə qeyd olunur. Müasir və dəyişən dünyada Nəsimini yaşatmaq bizim həm mənəvi vətəndaşlıq borcumuzdur, həm də yaradıcılığına verilən ən dəyərli qiymətdir.

Min illər və əsrlər keçsə də, onun yaradıcılığından bəhrələnən azərbaycanlılar, onun yolunu özünə nümunə kimi qəbul etmiş vətənpərvər ruhda böyümüş, lazım gəldikdə isə qəhrəmanlıq nümunələri nümayiş etdirmişlər, Nəsimi kimi xalqımızın sevimlisinə çevrilməklə yanaşı, ölkəmizin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə canlarından keçməklə şəhidlik zirvəsinə yüksəlmişlər.

Belə nümunələr yaxın və uzaq tariximizdə mövcuddur. Xalqımız XX əsrin əvvəllərində və sonlarında Qafqazda cərəyan edən tarixi proseslər və hadisələrdən istifadə edərək torpaqlarımızda dövlət yaratmaq xülyası ilə yaşayan mənfur düşmənlə, erməni daşnakları və onların havadarları ilə üzbəüz qalmışdır. İrəvan xanlığının ərazisində Ermənistan dövlətini yaradan daşnaklar zaman-zaman fəaliyyətlərini Zəngəzur və Göyçədə törədilən qətliamlar hesabına genişləndirərək ərazilərini böyütmüş və bunu Qarabağın ərazisinə qədər genişləndirmişlər. Buna qarşı mübarizə aparan azərbaycanlılar ədalətsizlik və haqsızlıqlar ilə üzləşmələrinə baxmayaraq, ümidsizliyə qapanmadan mübarizələrini davam etdirmişlər.

Qarabağ bölgəsində havadarlarının dəstəyi ilə yenidən fəallaşan ermənilər XX əsrin sonlarında keçmiş SSRİ-nin serişətsiz rəhbərliyinin ədalətsiz mövqeyindən istifadə edərək 1988-ci ildən etibarən Azərbaycana və onun torpaqlarına qarşı əsassız torpaq iddiası ilə çıxış etmişlər. Baş verən hərbi toqquşmaların nəticəsində, hazırda torpaqlarımızın 20 faizi işğal altındadır və bir milyondan çox azərbaycanlı qaçqın və köçkün həyatını yaşayır.

Keçmişdə yaşadığımız dövlətdə bizi beynəlmiləlçilik ruhunda tərbiyə etməyə çalışanlar, milli dəyərlərə və adət-ənənələrə qadağalar qoyulanda, orta məktəblərdə Nəsiminin bir neçə qəzəlinin tədrisinə icazə vermişdi. Düşünürəm, bu yalnız, azərbaycanlıların Nəsimiyə olan sönməz məhəbbəti və ona verilən yüksək dəyərə görə mümkün olmuşdur.

Bu gün Nəsimi yaradıcılığının işığından bəhrələnən hər bir gənc, orduda xidmət edir, düşmənlə üzbəüz səngərdə Vətənin keşiyində dayanır. Mənfur düşmənin kəndləri, şəhərləri dağıtması, uşaqları, qadınları və qocaları amansızlıqla öldürməsi, törətdiyi Xocalı soyqırımı insanların yaddaşına əbədi həkk olunaraq unudulmaz izlər buraxıb.

Düşmənin qəddarlığı, hiyləgərliyi və təxribatçı əməlləri ilə üzləşən Azərbaycan əsgəri ona layiqli cavab verməklə, mənfur düşməni daima öz yerinə oturtmuşdur. Belə vəziyyətlə üzləşən Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimov, Çingiz Qurbanov... düşmən təxribatının qarşısını tək başına qətiyyətlə almışlar, son ana qədər vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişlər. Onların əziz xatirəsi xalqımızın qəlbində daima yaşayır.

Hələ İkinci Dünya müharibəsində Stalinqrad cəbhəsində ağır yaralandıqdan sonra əsir götürülən həmyerlimiz Mehdi Hüseynzadə almanların işgəncə düşərgəsindən qaçaraq uzaq Adriatik dənizinin sahillərində partizan hərəkatına qoşularaq faşizmə qarşı mübarizəsini davam etdirmişdir. Mehdinin əsas amalı və mübarizəsi Xəzərin sahillərindən uzaqlarda bəşəriyyətin bəlasına çevrilən faşizmə qarşı idisə, bizim mübarizəmiz isə erməni millətçiliyinin tör-töküntülərinə və uydurma ideologiyaya qarşı mübarizə aparmaqdır. Bu gün Sloveniya torpaqlarında uyuyan əfsanəvi kəşfiyyatçı "Mixaylo" xalqların və ölkələrin dostluq və qardaşlıq simvoluna çevrilməklə yanaşı, düşmənlərimizin canına qorxu salmışdır.

Düşmən çox gözəl bilir ki, dərin keçmişə, qədim tarixə malik olan azərbaycanlılar, onlar havadarlarına nə qədər güvənsələr də, belə vəziyyətlə heç bir zaman barışmayacaq, bütün sahələrdə mili maraqların qorunmağa, pozulan haqsızlığın və ədalətsizliyin bərpasına gec-tez nail olacaq. Müasirləşən və inkişaf edən Azərbaycanın qətiyyəti, cəsarəti qarşısında düşmən heç bir zaman tab gətirə bilməyəcək. O, yaxşı bilir ki, bir gün hamı Nəsimi, Mehdi, Mübariz, Çingiz olacaq və son savaş başlayacaq. Bununla da qəhrəmanlar diyarının cəsur övladlarının əziz xatirəsi və onların qəhrəmanlıqları əbədi olaraq yaşayacaq.

**Polkovnik
Yaşar KƏRİMOV,
Silahlı Qüvvələrin
Hərbi Akademiyası**

# İdman

## Sərbəst güləş üzrə Azərbaycan millisi Avropa çempionatında üçüncü yeri tutub



Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında sərbəst güləş yarışına yekun vurulub.

Yarışda 3 qızıl, 1 gümüş və 2 bürünc medal qazanan sərbəst güləş üzrə yığmamız ümumilikdə 145 xal toplayaraq komanda hesabında Rusiya (162) və Türkiyədən (156) sonra 3-cü yeri tutub.

Millimizə xalları 8 güləşçi qazandırıb. Komandamızın hesabına çempionlar Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov hərəyə 25, gümüş medalçı Ağahüseyn Mustafayev 20, bürünc medalçılar Mahir Əmiraslanov-la Nurməhəmməd Hacıyev hərəyə 15, beşinci yerlə kifayətlənən Hacımurad Hacıyev və Murad Süleymanov isə hərəyə 10 xal yazdırıb.

## Ağır atlet Kənan Əliquliyev Avropa çempionatında çıxış etdiyi qrupda üçüncü olub



Batumidə keçirilən kişilər və qadınlar arasında ağır atletika üzrə Avropa çempionatı davam edir.

Aprelin 10-da Azərbaycan idmançısı Kənan Əliquliyev körpücük üzərinə çıxıb. O, 81 kiloqram çəki dərəcəsində C qrupunda yarışıb. Atletimiz iki hərəkətin cəmində 306 kiloqram nəticə ilə (135+171) öz qrupunda üçüncü yeri tutub. Onun yekun sıralamada tutduğu yer A və B qruplarında mübarizə başa çatandan sonra məlum olacaq.

Ümumilikdə 42 ölkədən 401 atletin (187 qadın və 214 kişi) iştirak etdiyi yarışda Azərbaycan yığma komandası altı idmançı ilə qatılıb.

## İkinci Avropa və Dünya Çimərlik oyunlarına vəsiqə qazanmış karateçilərimiz müəyyənləşib




Belarusun paytaxtı Minskdə keçiriləcək ikinci Avropa Oyunlarına və ABŞ-ın San-Dieqo şəhərində təşkil ediləcək Dünya Çimərlik Oyunlarına vəsiqə qazanan Azərbaycan karateçilərinin adları açıqlanıb.

İyunun 21-dən 30-dək 50 ölkədən 4 mindən çox atletin 15 idman növü üzrə mübarizə aparacağı ikinci Avropa Oyunlarında 6 karateçimiz iştirak edəcək. Kumite yarışlarında Azərbaycanı Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (+75 kq), Asiman Qurbanlı (+84 kq), eləcə də Nuranə Əliyeva (50 kq) və İrina Zaretska (68 kq) təmsil edəcəklər. Kata yarışlarında isə Roman Heydərli mübarizə aparacaq.

Qeyd edək ki, karateçilərimiz İspaniyada keçirilmiş sonuncu qitə çempionatında qazandıqları reytinq xalları ilə Avropa Oyunlarında iştirak hüququ əldə ediblər. İkinci Avropa Oyunlarının karate yarışları iyunun 29-30-da Minskdəki "Çijovka Arena"da keçiriləcək.

Sonuncu Avropa çempionatının bürünc mükafatçısı Roman Heydərovun nəticəsi ona Dünya Çimərlik Oyunlarında da ölkəmizi təmsil etmək şansı qazandırıb. Oktyabrın 9-15-də San-Dieqoda keçiriləcək Dünya Çimərlik Oyunlarının karate yarışları həmin ayın 10-11-də təşkil ediləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Bayramzadə Elnur Rövşən oğluna 2018-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 290 Nüsxə 3950 |